# “Necə gözəldir səni xatırlamaq”



■ Səxavət Sahil

Dünyada nə qədər estet insan varsa, o qədər də estetik düşüncə, istiqamət var. Mədəniyyətlərin, düşüncələrin hər biri, estetikaya töhvəsini verir, onu daha da zənginləşdirir. Nazim Hikmətin “Ne güzel şey hatırlamak seni” şeirinde gözəllik elementlərini Platonun ideya düşüncəsi, Hegelin estetik görüşləri çərçivəsində araşdıraq.

Şeir də incəsənətin digər növləri kimi estetik dəyərə malikdir. Nazim Hikmət bu şeirdə ideyanın əsas, madiyyatın isə nisbi olduğunu göstərir. Platonun, “hər şeyin əsası maddə deyil, ideyadır” fikrini əsas götürərək yuxarıdakı fikrimizi əsaslandıra bilərik. Platon hesab edirdi ki, bizim yaşadığımız və duyduğumuz dünya gerçək deyil, çünki dəyişkəndir. Bütün nəsnələrin əsl mahiyyəti onların görüntüsündə yox, ideyasında və səbəbindədir. Deməк olar ki, dünyada hər şey düşüncələrin fərqi ilə müqayisədə aydın olur. Fikirlər qəliblərə bənzəyir, hər şey onların formasını alır. Eyni zamanda, hisslər dünyasında hər şey ideyalara doğru yönəlir, onlara can atır.

**Estetika və xatırlama:**

Nazim Hikmət bu şeirində xatırlamanın estetik baxımdan, gözəl və önəmli olduğunu göstərir. Şeirin ilk bəndinə nəzər salaq:

*Ne güzel şey hatırlamak seni:*
*ölüm ve zafer haberler içinden,*
*hapiste*
*ve yaşım kırkı geçmişiken...*

Burada şair sevgilisinin gözəlliyini və bu xatırlamaların ölüm və zəfər xəbərləri içində olduğunu vurğulayaraq, xatırlamağın önəmini yazır.

Şair həbsdə olsa da, xatırlamanın kifayət etdiyini qeyd edir. Misal gətirdiyimiz bu şeir bəndinin sonunda “yaşım kırkı geçmişiken...” yazır. Vəziyyəti belə şərh eləmək olar: şair həbsxanada çəkdiyi əzablara rəğmən, hər gün eşitdiyi ölüm və zəfər xəbərlərinə görə içində olan ümid ölməyib. Artıq sevgilisinə qovuşa bilməyəcək, çünki həbs edilib, üstəlik yaşı qırxı keçib. Şairə sadəcə xatırlamaq qalır, bu da estetik baxımdan onun içindəki gözəllikdən xəbər verir.

**Bənzətmə estetikası:**

*Ne güzel şey hatırlamak seni:*
*bir mavi kumaşın üstünde*
*unutulmuş olan elin*
*ve saçlarında*
*vakur yumuşaklığı canımın içi*
*İstanbul toprağının...*



*İçimde ikinci bir insan gibidir*
*seni sevmek saadeti...*
*Parmakların ucunda kalan kokusu*
*sardunya yaprağının,*
*güneşli bir rahatlık*
*ve etin daveti:*
*kıpkızıl çizgilerle bölünmüş*
*sıcak koyu bir karanlık...*

. Burada sadəcə sevgilisinin həsrəti deyil, eyzi zamanda, İstanbulun görüntüsünü təsvir edərək onu sevgisi ilə eyniləşdirir. “Mavi kumaşın üstünde unutulmuş olan elin” sətirində müəllif mavi dənizin sahilindəki gözəli təsvir edərək, “ve saçlarında / vakur yumuşaklığı canımın içi İstanbul toprağının...” misrasında isə sevglisinin saçlarının İstanbul torpağı kimi yumşaq olmasını yazır. “İçimde ikinci bir insan gibidir seni sevmek saadeti” deyərkən, yaşadığı çətinliklərini xatırlayaraq, başqa bir adam kimi onu sevdiyini ifadə edir.

**Xəyal estetikası**

*Ne güzel şey hatırlamak seni,*
*yazamak sana dair,*
*hapiste sırt üstü yatıp seni düşünmek:*
*filanca gün, falanca yerde söylediğin söz,*
*kendisi değil*
*edasındaki dünya...*

Bu misralarda şair həbsdə olarkən uzanıb düşüncələrə daldığını yazır, keçmiş günləri xatırlayır. Sevgilisindən uzaqda olan şair, ona qovuşmayacağını bilir və onu xəyalında canlandırır.

Şair düşüncələrini müxtəlif formada əks etdirir və hər dəfə yeni bənzətmələr meydana çıxır. Şairin xəyalı uzaqlara gedir, “filanca gün, falanca yerde söylediğin söz” fikri də estetik dəqiqlik baxımdan maraqlıdır.

**Metafor estetikası və həqiqət**

*Ne güzel şey hatırlamak seni.*
*Sana tahtadan bir şeyler oymalıyım yine:*
*bir çekmece*
*bir yüzük,*
*ve üç metre kadar ince ipekli dokumalıyım.*
*Ve hemen*
*Fırlayarak yerimden*
*Penceremde demirlere yapışarak*
*Hürriyetin sütbeyaz maviliğine*
*sana yazdıklarımı bağıra bağıra*
*okumalıyım...*

Şair sevgilisinə taxtadan kiçik əşyalar düzəldir. Bunlardan biri də sandıqcadır. Sandıqca əşyaları qorumaq, içində nəyisə saxlamaq üçündür. Digər bir əşya taxta üzükdür. Bu həqiqəti əks etdirmir. Şair burada öz xəyalını qorumaq istədiyinə işarə edir: “...üç metre kadar ince ipekli dokumalıyım” dedikdə isə yazdıqlarını ipəyə büküb sandıqçaya qoymaq istədiyini yazır. Daha sonra həbsxanada olduğunu fərqinə varıb gerçək aləmə dönür, yazdıqlarını həbsxana pəncərəsindən göy üzünün maviliyinə oxumaq istəyir. Təbii ki, sevgilisi onu dinləmir və şair şeiri fikrə çevrilmiş sevgilisinə oxumaq istəyir.

**Ümidsizliyin estetikası**

*Ne güzel şey hatırlamak seni:*
*ölüm ve zafer haberleri içinde,*
*hapiste*
*ve yaşım kırkı geçmişiken...*

Şairin istifadə etdiyi “ölüm” və “zəfər” sözləri iki dünyanın varlığına işarədir. Və ölümlə zəfərin əbədi çarpışıdığı dünyada şair öz ümidsizliyini “hapiste” sözünü yazmaqla vurğulayır. Daha sonra “yaşım kırkı geçmişiken” yazır. Bu sözlər də onun ümidsiz olduğunu bir daha göstərir.

Şairə sadəcə sevgilisini xatırlamaq qalır ki, bu da estetika baxımından maddiyyatın yox, ruhun əhəmiyyətli olması mənasını ifadə edir.

Estetik gözəllik daha çox düşüncədədir. Hətta qədimdə tanrıların heykəllərini böyük və yöndəmsiz düzəldirdilər. Heykəlin özünün deyil, onun ruhunun gözəl olduğunu iddia edirdilər.

İdeanın mütləq fikirdən çox əldə edilən sonsuzluq olduğunu qəbul etmək baxımından, incəsənəti və digər sənət sahələrini duyğu idealına çatmağın başlanğıcı hesab edən Hegelin düşüncəsi Nazimin “Ne güzel şey hatırlamak seni, yazamak sana dair, / hapiste sırt üstü yatıp seni düşünmek/“ misralarında öz əksini tapır.

kaspi.-2017.-18-27 mart.-S.16.